*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 sentyabr 2020-ci il № 62 (2480) Qiyməti 30 qəpik


# Prezident İlham Əliyev:
## Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

*Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.*



- Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə, Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır.

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlmişdir. Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün Ermənistan tərəfindən törədildi və qeyd etdiyim kimi, bu dəfə də onlar öz cəzasını alıblar və alacaqlar.

Ermənistanın təxribatları, eyni zamanda, Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə demişdir ki, "Qarabağ Ermənistandır və nöqtə". Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbul edilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır.

**(Ardı 3-cü səhifədə)**

## Prezidentin mətbuat xidmətinin məlumatı

Sentyabrın 27-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti bu gün Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib, onlara Allahdan rəhmət diləyib. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulayıb.

Başsağlığına görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidentinin daimi dəstəyini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev bu gün cəbhə xəttində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində baş verən hadisələrin gedişi barədə məlumat verib.

Dövlət başçıları dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

## "Ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə sona qədər azərbaycanlı qardaşlarımızın yanındayıq"

Ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə sona qədər azərbaycanlı qardaşlarımızın yanında olacağıq. Ermənistanın xain hücumlarını qınayırıq.

AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, bunu Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın cəbhə xəttində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı açıqlamasında deyib.

Hulusi Akar bildirib ki, Qafqazda sülhə və sabitliyə ən böyük təhdid Ermənistanın təcavüzkar mövqeyidir. Bölgədə ciddi təhlükə yaradan bu təcavüzkarlığın qarşısı dərhal alınmalıdır.

# Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

*Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.*

*AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclasda çıxış edib.*



- Bildiyiniz kimi, bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində itkilərimiz var, həm mülki əhali, həm də hərbçilər arasında. Bu, bir daha onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Səhər tezdən məlumatı alan kimi, mən Müdafiə naziri, digər aidiyyəti qurumların rəhbərləri ilə əlaqə saxladım, müvafiq göstərişlər verdim və bu göstərişlər əsasında hazırda Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdır.

Bildirməliyəm ki, Ermənistanın hərbi təxribatı planlaşdırılmış təxribatdır. Onlar bu təxribata uzun müddətdir ki, hazırlaşırdılar. Bizdə olan operativ məlumat onu göstərirdi ki, Ermənistan bizə qarşı yeni müharibəyə başlamaq fikrindədir. Mən bu məsələ ilə bağlı artıq son bir həftə ərzində bir neçə dəfə həm televiziya kanallarında müsahibəmdə, eyni zamanda, BMT kürsüsündən çıxış edərkən öz fikirlərimi bildirmişdim və demişdim ki, təcavüzkar dövlət dayandırılmalıdır. Onlar yeni müharibəyə hazırlaşırlar.

Bu gün mən Azərbaycan xalqına müraciət etdim. Müraciətdə bu təxribatın səbəbləri və son müddət ərzində Ermənistanın çirkin addımları haqqında geniş məlumat verdim, fikirlərimi bölüşdüm, onları təkrarlamaq istəmirəm. Sadəcə olaraq, bir daha bildirirəm ki, bu gün səhər tezdən bizə qarşı edilən hərbi hücum planlaşdırılmış hərbi təxribat idi. Çünki bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan bizim mövqelərimiz atəşə tutuldu və eyni zamanda, yaşayış məntəqələrimiz, kəndlərimiz atəşə tutuldu. Qeyd etdiyim kimi, mülki əhali arasında itkilərimiz var. Bu, bir daha Ermənistanın, Ermənistan faşizminin eybəcər sifətini göstərir. Çünki dinc əhaliyə qarşı belə qəddarlıq ancaq faşist dövlətlərə aid ola bilər və birinci dəfə deyil, Tovuz hadisələrində, ondan sonra digər hadisələrdə, Xocalı soyqırımı erməni vəhşiləri tərəfindən əliyalın dinc əhaliyə qarşı törədilmişdir və bu dəfə də Ermənistanın əsas hədəfi bizim yaşayış məntəqələrimizdir. Onlar bu atəşi açmaqla istəyirlər ki, Azərbaycan ictimaiyyəti, Azərbaycan vətəndaşları arasında, cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaransın. Amma tam qətiyyətlə deyə bilərəm ki, - bu gün səhər mən bütün bölgələrdən, cəbhəyanı bölgələrdən məlumat almışam, - Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər.

Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Deyə bilərəm ki, əməliyyat uğurla keçirilir. Prezident Administrasiyasına, eyni zamanda, Müdafiə Nazirliyinə göstəriş verildi ki, əhali müntəzəm olaraq hadisələrin gedişatı ilə bağlı məlumatlandırılsın. Onu deyə bilərəm ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulmuşdur. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib. Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm!

Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, artıq onların ocaqları vəhşilər tərəfindən dağıdılıb. Baxın Ağdam şəhərinin qalıqlarına. Baxın, Füzuli şəhərinin qalıqlarına. Baxın, işğal edilmiş ərazilərdə bizim məscidlərimizin, qəbiristanlıqlarımızın dağılmış vəziyyətinə. Bütün bunları erməni cəlladları törədib və biz tam haqlıyıq. Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq.

Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr, peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir.

Onu da bildirməliyəm ki, bizim bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda, ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir.

Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun.

Mən müxtəlif dövrlərdə dəfələrlə demişəm ki, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik. Mən dəfələrlə demişəm, biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövləti yaradılsın. Heç vaxt imkan verə bilmərik və bugünkü hadisələr onu bir daha göstərir.

Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır. Mən Dağlıq Qarabağın tarixi ilə, keçmişi ilə bağlı beynəlxalq tədbirlərdə müxtəlif kürsülərdən dəfələrlə öz sözlərimi demişəm. Tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmışam. Bizim məqsədyönlü və yorulmaz səylərimiz nəticəsində bu gün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünyada tam geniş təsəvvür var. Ancaq münaqişənin ilk illərində bu, belə deyildi. Münaqişənin ilk illərində dünya erməniliyi Azərbaycanı işğalçı kimi, təcavüzkar kimi təqdim edirdi. Əfsuslar ki, o vaxt Azərbaycan rəhbərliyində olmuş şəxslər bu təbliğata qarşı öz sözünü deyə bilmədilər. Azərbaycan elə bir ağır vəziyyətdə idi ki, torpaqlarımız əldən gedirdi, amma dünyada elə bilirdilər ki, Azərbaycan təcavüzkardır. Qarabağ torpaqlarının itirilməsinin səbəbkarı Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyasıdır. Məhz onların dövründə torpaqlarımız işğal altına düşüb. Onların xəyanətkar, yarıtmaz fəaliyyəti nəticəsində biz bu torpaqları itirmişik. Mən həmişə deyirdim ki, biz müvəqqəti itirmişik, biz bu torpaqlara qayıtmalıyıq. Şuşanın satılması sırf o vaxt hakimiyyət uğrunda gedən mübarizənin nəticəsində baş vermişdir. Kəlbəcərin, Laçının işğal altına düşməsi Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin birbaşa məsuliyyətidir. Məhz bu işğaldan sonra demək olar ki, növbəti işğal da qaçılmaz oldu. Çünki Laçının, Kəlbəcərin, Şuşanın işğal altına düşməsi Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlantı yaratmışdır. Belə olan halda, əlbəttə ki, o bölgələrə, Dağlıq Qarabağa silah təchizatı, ondan sonra digər maddi resursların təchizatı asanlaşmışdır.

Bu gün biz Azərbaycan Xalq Cəbhəsi Partiyasının və Müsavat Partiyasının yarıtmaz əməllərini, bu ləkəni Azərbaycanın üstündən silirik. Bu gün biz öz torpaqlarımızı bərpa edirik. 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Bu gün - 2020-ci ildə, artıq bir daha qeyd etmək istəyirəm ki, bir neçə yaşayış məntəqəmiz işğalçılardan azad edildi, bir neçə strateji yüksəkliklər Azərbaycanın nəzarətinə keçdi. Güclü Azərbaycan Ordusu güclü siyasi iradəyə əsaslanır.

Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır.

Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik.

İndi isə məlumat üçün söz verilir Müdafiə naziri Zakir Həsənova.

Müdafiə naziri Zakir Həsənov dedi:

- Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Məruzə edirəm ki, saat 6-ya bir neçə dəqiqə qalmış erməni silahlı qüvvələri Füzuli, Cəbrayıl, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriyadan atəşə tutmuşdur. Dağıntılar, əhali arasında yaralananlar və itkilər olmuşdur. Hərbi hissələrin ön xətti də atəşə tutulmuşdur. Eyni vaxtda Ağdam, Füzuli, Cəbrayıl istiqamətindən düşmənin silahlı qüvvələrinin cəmləşməsi müşahidə olunmuşdur və onların hücuma hazırlaşdığı müşahidə edilmişdir. Əməliyyat şəraiti nəzərə alınaraq, ilk növbədə, Sizə məruzə olunmuşdur. Əməliyyat şəraitini nəzərə alaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirib. Əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılmışdır. Mənə indi əlavə məlumat da verdilər, yeddi kənd işğaldan azad olunmuşdur. Məsləhətdirsə adlarını burada qeyd edim?

Prezident İlham Əliyev:

- Qeyd et.

Nazir Zakir Həsənov:

- Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz, Qərvənd kəndləri azad edilmişdir. Azərbaycan Ordusu digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı həyata keçirir və düşmən böyük itkilər verərək geri çəkilir. Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan Ordusunun zərbələri həm ön xətdə, həm də düşmənin tam dərinliyində həyata keçirilir. Siz qeyd etdiyiniz kimi, ən müasir silahlar tətbiq olunur və biz düşmənin müqavimətini o qədər də güclü görmürük. Düşmən tam şəkildə geri çəkilir.

Məruzə etdi Müdafiə naziri general-polkovnik Həsənov.

Prezident İlham Əliyev:

- Aydındır. Biz Təhlükəsizlik Şurasının qalan hissəsini qapalı rejimdə keçirəcəyik. Əminəm ki, Azərbaycan vətəndaşları bu qərara anlayışla yanaşacaqlar. Çünki müzakirə olunan məsələlərin bir çoxu hərbi sirr təşkil edir. Ancaq yenə də demək istəyirəm ki, Azərbaycan əhalisi müntəzəm olaraq həm Prezident Administrasiyası, həm Müdafiə Nazirliyi tərəfindən məlumatlandırılır. Azərbaycan vətəndaşlarına operativ məlumat çatdırılacaqdır.

Mən əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edirəm. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!

* * *

Sonda Təhlükəsizlik Şurasının digər üzvləri müzakirədə iştirak etdilər.

# Prezident İlham Əliyev: Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

(Əvvəli 1-ci səhifədə)

Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər.

Bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Bu yaxınlarda Ermənistanın baş naziri bəyan etmişdir ki, on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacaqdır. Bu, nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır.

Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır. İş burasındadır ki, Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisi azalır. Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan resursları yoxdur ki, işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirsinlər. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, bizdə olan dəqiq məlumata görə, bizim işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıbdır. Bizim rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Eyni zamanda, işğal edilmiş torpaqlarda bu yaxınlarda keçirilmiş hərbi təlimlər bizim üçün Ermənistanın növbəti təxribatı sayılmalıdır. Çünki bu təlimlərin bir məqsədi var: Azərbaycana hücum etmək, mülki əhalini atəşə tutmaq və yeni torpaqları işğal etmək! Sadaladığım bütün faktlar bir daha onu göstərir ki, bu gün regionda təhlükə mənbəyi Ermənistandır və onun çirkin siyasətidir.

Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədəbaba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Prezident İlham Əliyev "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərman imzalayıb

*Prezident İlham Əliyev sentyabrın 27-də "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərman imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Fərmana əsasən, Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilib.

Fərmanda deyilir: Hərbi vəziyyətin təmin edilməsi məqsədi ilə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilsin.

Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan 06:00-dək komendant saatı tətbiq edilsin. Komendant saatının tətbiq edildiyi ərazilərdə:

- şəxslərin xüsusi icazə və şəxsiyyəti təsdiq edən sənədləri olmadan küçələrdə və digər ictimai yerlərdə olmaları qadağan edilsin;
- xüsusi giriş-çıxış rejimi tətbiq edilsin, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülsün.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi komendant saatının tətbiqindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

Hərbi vəziyyət dövründə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların hüquqlarının və qanuni mənafelərinin, vətəndaşların hüquq və azadlıqlarının qismən və müvəqqəti məhdudlaşdırılması nəzərdə tutan tədbirlər vəziyyətin kəskinliyindən irəli gələn hüdudlar daxilində və Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tətbiq edilsin.

## Azərbaycanda qismən səfərbərlik elan edilib

*Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 28-də "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilib.

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etmək tapşırılıb.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

## "Düşməni sona qədər məhv etmək uğrunda vuruşacağıq"

General-mayor Mayis Bərxudarov:

"Düşmən hücumunun qarşısının alınması məqsədilə həyata keçirdiyimiz əks-hücum əməliyyatı uğurla davam edir. Gərgin döyüşlər gedir. Ordumuz torpaqlarımızın işğaldan azad edilməsi üzrə tapşırıqları yüksək döyüş əzmi və igidliklə icra edir.

Komandirlik etdiyim birliyin şəxsi heyəti düşməni tam məhv etmək üçün son damla qanınadək vuruşacaq və qələbə qazanacaq".

## "Düşmənin itkiləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən olan erməni əsilli muzdlular da var"

*Əldə olunan kəşfiyyat məlumatına əsasən, düşmənin itkiləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən olan çoxlu sayda erməni əsilli muzdlu döyüşçülər də var. Lakin onlar Ermənistanda rəsmi qeydiyyata alınmadığı üçün düşmən bu itkiləri asanlıqla gizlədir.*

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

Vaqif Dərgahlı bildirib ki, əvvəlki döyüşlərdə olduğu kimi, bu dəfə də Ermənistanın hərbi-siyasi rəhbərliyi hərbi məlumatların yayılmasına tətbiq edilən qadağanı əsas gətirərək döyüş itkilərini ictimaiyyətindən gizlədir. İtkilərin sayının çox olması səbəbindən düşmən bir müddət sonra bu itkiləri müxtəlif şəraitdə baş vermiş hadisə kimi göstərərək etiraf etmək məcburiyyətində qalacaq.

AZƏRBAYCAN ORDUSU

# Uğurların mübarək, Azərbaycan Ordusu!

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fikri hər bir Azərbaycan vətəndaşının qələbə inamını ifadə edir. "Bizim başqalarının torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik".*

*Azərbaycan Ordusunun bölmələri erməni silahlı qüvvələrinin hücumuna qarşı başladığı əks-hücum əməliyyatında ilkin uğurlar qazanıb. Bu uğurlar yaxın vaxtlarda Azərbaycan Ordusunun tam qələbəsiylə nəticələnəcək. Döyüşlərdə qazanılan və qazanılacaq uğurlar əsgər və zabitlərimizin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının yüksək səviyyəsinin nəticəsidir. Uğurların mübarək, Azərbaycan Ordusu! Yaxın günlərdə "Böyük Qələbən mübarək!" deyəcəyik. Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin döyüşlər haqqında məlumatlarını dərc edirik.*



Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilir.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görür.

* * *

Cəbhənin ən gərgin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır.

Hazırda Azərbaycan Ordusu tərəfindən cavab tədbirləri görülür və qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Əhali arasında çaşqınlıq salmamaq, həmçinin hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədilə sosial şəbəkə istifadəçilərini, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.

* * *

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib.

Şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsini, hərbi obyektlərini və döyüş texnikasını aşkar edərək məhv edirlər.

Əldə olunan məlumata görə müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri vurulub, ekipaj üzvləri sağdır.

Qoşunlarımızın sürətli əks-hücum əməliyyatı davam edir.

* * *

Azərbaycan Ordusunun bölmələri cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murov dağı istiqamətlərində Ermənistan qoşunlarının işğalı altında olan vacib yüksəkliklər uğrunda döyüşlər aparırlar.

Raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv edirlər.

* * *

Cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsi azad olunub.

Əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş əraziləri ni Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verir.

* * *

Ermənistan ordusuna məxsus silah-sursat anbarı məhv edilib.

Ordumuzun zərbələri nəticəsində anbarda baş verən partlayışlar təqdim edilən videoda aydın müşahidə olunur.

* * *

Əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qalıb. Belə ki, düşmənin 22 ədəd tank və digər zirehli texnikası, 15 ədəd "OSA" zenit-raket kompleksi, 18 ədəd pilotsuz uçuş aparatı (PUA), 8 ədəd artilleriya qurğusu məhv edilib, ölən və yaralı olmaqla, canlı qüvvə baxımından 550 nəfərdən artıq itkisi var. Müxtəlif istiqamətlərdə onun 3 silah-sursat anbarı məhv edilib.

Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri podpolkovnik Lernik Vardanyan məhv edilib, onun komandiri olduğu hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalıb.

Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospital və mülki xəstəxanalarda yer qıtlığı yaranıb, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur.

Ermənistan tərəfi hər zaman olduğu kimi yenə də ordusundakı döyüş itkilərinin real sayını ictimaiyyətdən gizlədir.

* * *

Azərbaycan Ordusu bölmələrinin dəqiq zərbələri nəticəsində cəbhənin müxtəlif istiqamətlərdə Ermənistan silahlı qüvvələrinə məxsus daha bir neçə hərbi texnika məhv edilib.

Təqdim olunan videoda düşmənə məxsus hərbi texnikaların məhv edilmə anları əks olunub.

* * *

Azərbaycan Ordusunun bölmələri düşmənin döyüş texnikasını sərrast atəşlə məhv etməyə davam edir.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin təqdim etdiyi növbəti videoda düşmənin döyüş texnikasının məhv edilməsinə dair görüntülər nümayiş olunub.

* * *

Düşmənin aktiv döyüş fəaliyyətinin qarşısının alınması məqsədilə atılan addımlar nəticəsində Ermənistan silahlı qüvvələrinə məxsus daha 2 tank bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin yaydığı daha bir videoda isə düşmən tanklarının məhv edilməsinə dair görüntülər nümayiş olunub.

* * *

Sentyabrın 28-də səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər şəhəri atəşə tutulur.

Nazirliyin rəhbərliyi qarşı tərəfi sonuncu dəfə xəbərdar edir ki, tərəfimizdən onlara qarşı adekvat cavab tədbirləri görüləcək.

* * *

Ermənistan silahlı qüvvələrindən azad edilən yüksəkliklərdən və əlverişli mövqelərdən hərəkətə keçən Azərbaycan Ordusunun bölmələri əldə olunmuş müvəffəqiyyəti artırmaq məqsədilə əks-hücum əməliyyatını davam etdirir.

Düşmənin müqavimət göstərdiyi mövqelərə raket-artilleriya və aviasiya zərbələri endirilib. Düşmən sıxışdırılaraq əldə saxlamaq istədiyi hədlərdən geri çəkilməyə məcbur edilir.

Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizlənib, düşmən xeyli itki verib.

* * *

Ordumuzun şəxsi heyətinin döyüş əzmi və mənəvi-psixoloji durumu yüksəkdir, gərgin döyüşlərdə iştirak edən hərbi qulluqçularımız şücaətlə döyüşürlər.

Azərbaycan Ordusunun apardığı döyüşlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikaları məhv edilib.

Təqdim edilən videoda bir az əvvəl iki ədəd düşmən tankının məhv edilməsi anı əks olunub.

* * *

Yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən artilleriya bölmələrinə zərbələr endirilib.

Artilleriyaçılarımızın sərrast atəşi nəticəsində ağır itkilərə məruz qalan düşmən bölmələri yerləşdiyi atəş mövqelərindən geri çəkilməyə məcbur edilib. Qeyd edək ki, həmin artilleriya bölmələri Ermənistan ordusunun 5-ci dağatıcı alayının tərkibindədir.

* * *

Sentyabrın 28-dən 29-na keçən gecə bütün cəbhə boyu gərgin döyüşlər davam edib.

Ermənistan silahlı qüvvələri cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücum cəhdi göstərib.

Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri uğurla müdafiə olunaraq düşmənin bütün cəhdlərinin qarşısını dərhal alıb.

Gecə döyüşlərində cəbhənin Ağdərə istiqamətində düşmənin Madagizdən hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətdə yerləşən qoşunlarımız tərəfindən məhv edilib.

Cəbhənin Füzuli-Cəbrayıl istiqamətində səhər saatlarında yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilib.

Gərgin döyüşlər davam edir. Düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur edilir.

* * *

Ermənistan növbəti provokasiyaya əl atıb. Sentyabrın 29-da səhər saat 07.30-dan etibarən Ermənistan ərazisindən Azərbaycanın Daşkəsən rayonunun ərazisi artilleriya atəşinə tutulur.

Azərbaycan Ordusu tərəfindən adekvat tədbirlər görüləcək.

* * *

Sentyabrın 29-u səhər saatlarından etibarən Füzuli şəhərinin işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun hücumu davam edir

Səhər saat 07.00-08.00 radələrində cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı qəhrəman əsgərlərimiz tərəfindən məhv edilib.

* * *

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənə məxsus növbəti iki tank dəqiq atəşlə məhv edilib.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda ordumuzun apardığı əks-hücum əməliyyatları davam edir.

# Baş Prokuror və Hərbi Prokuror cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, Respublika Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev və Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar.*




Əvvəlcə Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi hörmət və ehtiramla yad edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müdafiənin ön xəttində döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşlərdə döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətin daha da yaxşılaşdırılması, hərbi kollektivlərdə münasibətlərin qanunvericilikdə nəzərdə tutulan tələblər və nizamnamələr çərçivəsində qurulması, şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, o cümlədən digər məsələlər barədə söhbətlər aparılıb.

Hərbi qulluqçularla görüşlər zamanı Silahlı Qüvvələrin Ali Baş Komandanının ordu qarşısında qoyduğu tapşırıqlar bir daha şəxsi heyətin diqqətinə çatdırılıb, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqəti, qayğısı və birbaşa rəhbərliyi nəticəsində Azərbaycan Ordusunun inkişafı və ölkənin hərbi qüdrətinin artırılması sahəsində əldə olunan nailiyyətlərdən danışılıb.

K.Əliyev hərbi xidmətdə fərqlənən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edib.

Sonra hərbi qulluqçularla birgə nahar edilib və çay süfrəsi arxasında onları maraqlandıran suallar cavablandırılıb.

# Naxçıvanda mühəndis ixtisaslı manqa komandirləri ilə təlim-metodiki toplantı keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən mühəndis ixtisaslı manqa komandirləri ilə təlim-metodiki toplantı keçirilib.

Toplantıda əsas diqqət ixtisas və taktiki-xüsusi hazırlıq üzrə məşğələlərə yönəldilib. Məşğələlər zamanı səhra şəraitində avtomobil texnikalarının maskalanma üsul və vasitələri, silahlanmada mövcud olan müasir mina əleyhinə qoruyucu istehkam kostyumları və minaaxtaranlar, ön xəttin qarşısında qurulacaq partlamayan piyada və tank əleyhinə mühəndis maneələrinin nümunələri, döyüş və avtomobil texnikalarının səngərləri və daldalanacaqları, "Pomnis-2" mina sahələrindən keçidaçma qurğusunun taktiki-texniki xüsusiyyətləri və iş prinsipi, mühəndis-müşahidə postlarından düşmənin, ərazinin və obyektlərin mühəndis kəşfiyyatının aparılması qaydaları nümayiş etdirilib.

Yekunda toplantıya cəlb edilmiş heyətdən fiziki və ixtisas hazırlığından məqbullar götürülüb.

# Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı üçün yeni kompleks inşa olunur

Ümummilli liderimiz Heydər Əliyevin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi vəzifələr bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında da hərbi hissələrin maddi-texniki təminatı xeyli möhkəmləndirilmişdir. Aparılan quruculuq işləri zamanı şəxsi heyətin sağlamlığı da diqqətdə saxlanılır, müasir xəstəxanalar və tibb məntəqələri istifadəyə verilir.

Sentyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının yeni kompleksinin inşası ilə maraqlanıb.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Bildirilib ki, hospital 20 min 450 kvadratmetr ərazini əhatə edir. Zirzəmi ilə birlikdə 5 mərtəbədən, 250 otaqdan ibarət olacaq 280 çarpayılıq hospitalda əsas tikinti işləri başa çatdırılıb, bütün mərtəbələrdə kommunikasiya xətlərinin çəkilişi aparılıb, havalandırma sistemi və 4 lift quraşdırılıb. Hazırda binada son tamamlama işləri aparılır.

Hospitalda radiologiya, tibbi ekspertiza, fizioterapiya, travmatologiya, anesteziologiya, reanimasiya, poliklinika, intensiv terapiya, qəbul, əməliyyat, kardiologiya, cərrahiyyə, urologiya, psixonevrologiya, lor və üz-çənə cərrahiyyəsi, laboratoriya və digər bölmələr fəaliyyət göstərəcəkdir. Hərbi qulluqçuların tibbi müayinə və müalicəsinin keyfiyyətlə aparılması üçün hospital ən müasir tibbi avadanlıqlarla təchiz ediləcəkdir.

Hospitalda müalicə alacaq xəstələr üçün həyətdə istirahət guşəsi istifadəyə veriləcəkdir. Tikintisi aparılan yardımçı binada tibbi tullantıların yandırılması, oksigen, generator otaqları, qaraj və bufet yerləşəcəkdir.

Ali Məclisin sədri hospitalda ilin sonuna qədər işlərin başa çatdırılması barədə tapşırıqlar verib.

# Ölkəmizdəki xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların nümayəndələri əməliyyat şəraiti haqqında məlumatlandırılıb

Sentyabrın 28-də Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların (BMT, Aİ, BQXK) ölkəmizdəki nümayəndələrinə Ermənistanın Azərbaycana qarşı təcavüzü, cəbhə xəttində yaranmış vəziyyət, qoşunlarımızın əkstədbirləri və yaranmış əməliyyat şəraiti haqqında məlumat verilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nümayəndələrə düşmənin itkiləri, azad edilmiş ərazilər və yüksəkliklər, o cümlədən düşmənin təxribatları və dezinformasiya fəaliyyətləri haqqında ətraflı məlumat verilib.

# Mühəndis-istehkam bölmələri ilə taktiki-xüsusi və döyüş hazırlığı üzrə məşğələlər keçirilir



*Müdafiə nazirinin təsdiq etdiyi 2020-cil üçün döyüş hazırlığı planına uyğun olaraq Mühəndis-istehkam bölmələri ilə taktiki-xüsusi və döyüş hazırlığı üzrə məşğələlər keçirilir.*

Plana əsasən, həyəcan siqnalı ilə qaldırılaraq döyüşə hazır vəziyyətə gətirilən bölmələr mürəkkəb əməliyyat şəraitində döyüş əməliyyatlarının mühəndis təminatı üzrə tapşırıqları yerinə yetirirlər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşğələlərdə əsas məqsəd komandirlərin bölmələri idarəetmə bacarıqlarının praktiki yoxlanılması, onların döyüş, vəziyyəti qiymətləndirmə və yaranmış şəraitə uyğun əsaslandırılmış qərar qəbuletmə vərdişlərinin daha da təkmilləşdirilməsidir.

Praktiki məşğələlərə cəlb edilən bölmələrin şəxsi heyəti mühəndis qoşunlarında silahlanmaya qəbul edilmiş müasir mühəndis texnikası və avadanlıqlarından effektiv istifadəsi üzrə bacarıqlarını təkmilləşdirirlər.

Məşğələlər zamanı əsas diqqət tank körpüqquranları, maneələğvetmə texnikası, partlamayan maneələr və mühəndis döyüş sursatlarından tətbiq edilməsinə yönəlib. Mühəndis yol bölmələri tərəfindən ponton-körpü salmaqla su maneələrinin keçilməsi, mina sahələrində müxtəlif üsullarla keçidlərin açılması, məftil maneələrin dəf edilməsi və digər tapşırıqlar da praktiki icra edilib.

# "Ən yaxşı ştatdankənar kimya manqası" adı uğrunda yarış keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dünyanın qabaqcıl istehsalçılarının və ölkəmizin milli müdafiə sənayesinin istehsalı olan yüngül mühafizə vasitələri nümayiş etdirilib.

Yarış ştatdankənar kimya manqalarının şəxsi heyətinin taktiki-xüsusi və kütləvi qırğın silahlarından qorunma hazırlığı üzrə nəzəri biliklərinin və praktiki bacarıqlarının yoxlanılması məqsədilə keçirilib. Yarışda kütləvi qırğın silahlarından mühafizə üzrə normativlər yerinə yetirilib və nəzəri biliklərdən məqbullar götürülüb. Sonda qaliblər mükafatlandırılıb.

Ön xətdən reportaj

# Qələbənin tarixini siz yazırsınız!



*Gözəl bir ovqatla səngərlərə yaxınlaşmaqdayıq. Bu gözəl ovqatın qələbə ərəfəsinin duyğuları olduğunu düşünürdük. Bu düşüncəmiz ictimaiyyətin niyyətindən süzülən düşüncəydi, şübhəsiz. İki gün sonra yaşanılacaq gözəl bir ovqatı arzulayıb söhbətləşəcəyik. Bu söhbətə niyyət söhbəti deyəcəyik. Bu niyyətin çox yaxın vaxtlarda gerçəkləşəcəyinə əminliklə söhbətləşəcəyik. Onda əsgərlərə "Qələbənin tarixini siz yazacaqsınız!" - deyəcəm.*

Reportajı yazanda bu fikri ordu hissələrimizin ilkin uğurları əvəzlədi: "Qələbənin tarixini siz yazırsınız" - yazdım...

Ön xəttə gedəndə də, ön xətdə də həmişə düşüncələrimizi bir inam nurlandırır: Torpaqlarımız işğaldan azad ediləcək! Bu inam hər bir vətənsevərin inamıdı. Bu inamla payızın içindən keçib ön xəttə çatmaqdayıq. Ağacların yarpaq düzümünün gözəlliyinin, çölün-düzün gözdoyduran yaraşığının təravətinin azalması payızın, sökülən dan yerinin görkəmini yaz ovqatına bələmək Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun qüdrətidi. Bu ruh həm də azərbaycançılığın ruhudu, qələbə ruhudu - qələbənin ruhudu, yəni, "Mən azərbaycanlıyam!" deyənlərin hamısının ruhunun mehrabıdı. Hərbi xidmətin mahiyyətini Vətənə sədaqət tamamladığına görə, Azərbaycan əsgərinin qələbə ruhu təbiətin gözəlliyə belə bir qəsdinin qüdrətindən çox üstündü. Bu düşüncələrin cazibəsindəykən səngərlər görünür. Könlümü munis bir doğmalıq silələyir. Bu doğmalıq Azərbaycan Ordusuna qədərsiz ehtiramdı.

Payızın ağacların yarpaqları seyrəlmiş budaqlarından sürüşən ürkəcək küləyi çölün-düzün saralmaqda olan otluğuna sərilir. "Birbirinə söykəkli otların titrəyişində duyulan səksəkə səngərlərə yaxınlaşdıqca sovuşdu", - deyəcəm, əsgərlərin baxışlarında səmimi bir təbəssüm görünəcək...

Səngərə çatmışıq...

Səngər müharibə deməkdi...

Səngər də Vətən torpağıdı, bu səbəbdən səngərlərin sipəri əsgərin döyüş hazırlığıdı. Bu hazırlıq Ali Baş Komandanın döyüş əmrinin qələbəylə tamamlanacağına ictimaiyyətin inamıdı. İctimaiyyətin adından əsgərlərə deyəcəm ki, siz ordu sıralarından Böyük Qələbənin qalib əsgəri kimi tərxis olunacaqsınız. Əsgərlər bir anlığa bir-birinə, sonra bir boy da dikəlib qarşı tərəfə baxacaqlar. Baxışlarım əsgərlərin bir-birinə sarılan baxışlarından yapışacaq. Əsən külək bir qədər çılğınlaşacaq. Onda 2016-cı ilin aprelini xatırlayacam: Cocuq Mərcanlıdan üzü Lələtəpəyə sarı baxanda əsgərlərdən biri "Döyüşə Lələtəpənin o üzündən başlayacağıq" demişdi. Bu gözəl düşüncəni "Lələtəpənin sağından-solundan Şuşaya aparacaq yollar görünür" kəlmələriylə tamamlamışdım. On-on beş gündən sonra bu fikri "Lələtəpə" poemasında bir misra ilə ifadə etmişdim. Qürurlanan zabitin əli əsgərin çiyninə enmişdi: "Döyüşlərdən sonra o yolların hamısına Zəfər yolu deyiləcək". Bu söhbəti də xatırladacam. Döyüş növbətçiliyindən qayıtmış əsgərlərin əhatəsində komandirin "Bizim əsgərlərimiz də o vaxtlar söhbətləşdiyiniz əsgərləri əvəz etmiş əsgərlərin sırasında olacaq!" - deyəcəyini düşünürəm. Təxminimdə israrlıyam...

Döyüş növbətçiliyi aparan əsgərlərin nəfəsini duya-duya qarşı tərəfə baxıram. Payız o torpaqları da saraldıb. Könlümdən o sarılığa sarılmaq keçir. Qələbənin tarixini yazacaq əsgərlərimizlə söhbətləşəndə deyilmişdi ki, yaxın vaxtlarda döyüş bayraqlarımız iişğaldan azad edəcəyimiz torpaqlarda da dalğalanacaq. Haradan biləydim ki, əsgərin niyyəti cəmi iki gündən sonra indi dayanıb müşahidə etdiyimiz mövqenin o üzündə - Qaraxanbəylidə, Kənd Horadizdə, Dərədizdə, Böyük Mərcanlıda, Qərvənddə, Yuxarı Əbdürrəhmanlıda gerçəkləşəcək...

Səngərdəyik...

Qəhrəmanlardan, qəhrəmanlıqlardan, şəhidlikdən, şəhidlərdən danışırıq.

"Qəhrəmanlıq sevgidən yaranır. Vətənini, xalqını böyük məhəbbətlə sevməyənlər məqamında üreyinin hökmüylə ilin-gününün bir anını tarixləşdirə bilməz, buna qüdrəti çatmaz. Etibar Hüseynov qumbara ilə düşmən tankının altına bir anın içində atıldı, Rasim İbrahimov özünü də, onu əsir almaq istəyən erməniləri də qumbara ilə bir anın işində partlatdı", - çavuş Fuad Zeynalov belə deyir. Qəhrəmanlığın başlanğıcı bir andır, ömrü əbədilik...", - deyirəm.

"Qəhrəmanlıq həm də döyüşdə yaranır, başlanğıcı döyüşdür. Ali Baş Komandanın döyüş əmri qələbəylə tamamlanacaq, torpaqlarımız işğaldan bu döyüşlə azad ediləcək. Neçə-neçə əsgər bu döyüşlərin qəhrəmanı olacaq", - zabit Elvin Cəfərov belə deyir...

Yazıram və bilmirəm ki, iki gündən sonra başlanacaq döyüşlərin qəhrəmanı söhbətləşdiyim hansı əsgər olacaq...

1993-cü ilin yanvarında zabit Sahib Aslanovla Zəligöldə gözgözə, diz-dizə söhbətləşirdik. Qəhrəmanlıqlardan da danışmışdıq. "Əsgər qəhrəman olmaq üçün döyüşmür, döyüş əmrini yerinə yetirir. Qəhrəmanlıq döyüşün gedişində yaranır. Əsgərlərimiz cəsarətlə, qətiyyətlə, mərdliklə vuruşurlar. Qəhrəmanlıq qələbə ruhunun kükrəyişidir. Əsgərlərimiz döyüş əmrini bu ruhla yerinə yetirirlər", - Sahib belə demişdi. Bu söhbəti xatırladıram.

Zabit Elvin Cəfərov qətiyyətlə deyir ki, bizim əsgərlərimiz də Sahib Aslanovun güvəndiyi əsgərlərin davamçıları kimi döyüş əmrini qələbə ilə tamamlayanların sırasında döyüşlərin qəhrəmanı olacaq.

- Azərbaycan əsgərinin qələbəsinə qəhrəmanlıq deyəcəyik, - sözümü bitirər-bitirməz əsgər Tunar Hüseynov deyir:

- Hər birimiz hərbi xidmətə bu döyüşün iştirakçısı olmaq amalıyla başlamışıq. İyul döyüşlərində də belə istəyimiz vardı. Onda bizim döyüşdə iştirakımıza ehtiyac olmadı. Döyüşənlərə biz də həsəd aparırdıq. Hamımız Ali Baş Komandanın əmriylə başlayacaq döyüşlərin iştirakçısı olacağıq, Böyük Qələbənin əsgəri kimi tərxis ediləcəyik.

- Azərbaycan Ordusunda həyata keçirilən əsaslı islahatlar, bütün qoşun növlərini əhatə edən irimiqyaslı təlimlər şəxsi heyətin döyüş hazırlığını yüksəltdi. Şəxsi heyət silahlanmaya daxil edilən ən müasir döyüş texnikalarının, uçuş aparatlarının istismar xüsusiyyətlərini mükəmməl mənimsəyib. Bunlar həm döyüş hazırlığının tərkib hissəsidir, həm də bu hazırlığın davamıdır. İndi ordumuz nəinki Cənubi Qafqazda, dünyada ən güclü ordular sırasındadır. Bunu dostumuz da bilir, düşmənimiz də. Dünya ictimaiyyəti onu da bilir ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etməyə qadirdir, - əsgərin sözünü zabit Cavid Hüseynov belə tamamlayır.

Söhbət əsgərlərin düşüncələrində döyüş ovqatı, qələbə ruhu yaradır. Bu ovqat, bu ruh xalqın gözlədiyi ovqatdır, ruhdur. Xalq bu ruhun təşnəsidir. Bu ovqat işğalın sonunda yaşanılacaq sevincin ovqatıdır...

Birinci Qarabağ müharibəsindən söz düşür. Murovdağda olmuş bir söhbəti xatırlayıram (bu yazını yazanda Murovdağ ancaq Azərbaycan əsgərinin nəfəsini eşidirdi...). Məniydim, zabit Qurban Qurbanovuydu, zabit Bəhram Ləzimovuydu, operator-rejissor Nizami Abbasıydı, operator Etibar Şiriniydi. Olmuş döyüşlərdən danışmışdıq, olacaq döyüşlərdən danışırdıq. Onda Bəhram Vəng ətrafında olmuş bir döyüşə əsaslanıb qətiyyətlə demişdi ki, əsgərlərimiz döyüşə həmişə qələbə ovqatıyla başlayır. Mən indiyəcən ən çətin vəziyyətlərdə də əsgərlərimizdə zərrəcə qorxu hiss etməmişəm. Elə döyüşlər olub ki, əsgər səngər yoldaşlarını xilas etmək üçün döyüşü öz üzərinə çəkib, yəni, düşmən atışı ona sarı cəmləyib. Belə döyüşlərdən əksəriyyəti qələbəylə çıxıb. Belə döyüşlərə qəhrəmanlıq döyüşləri də deyə bilərik. Azərbaycan əsgərinin ən güclü silahlarından biri də qorxmazlıqdır. Qorxmazlıq Vətən sevgisinin təzahürüdür. Bu söhbət zabitin də, əsgərlərin də düşüncələrinin səmtini bayaqkı söhbətin davamına yönəldir. Yenə döyüş əzmindən, qələbə ruhundan, Ali Baş Komandanın əmriylə başlayacaq döyüşlərdən, qazanılacaq qələbədən, bu qələbənin dostun sevincinə, qəlbipaxırların təəssüfünə dönəcəyindən danışacağıq...

Səngərlərdə əsgərlərlə söhbətin mahiyyəti qələbədi. Əsgərlərin Vətən haqqında, torpaq haqqında düşüncələri müqəddəslik mərtəbəsində dərk edilir. Döyüş əzmi ilə, qələbə ruhu ilə xidmət edənlərin düşüncələrində ictimaiyyətin düşüncələrinin eyni, oxşarını duymaq könül xoşluğudu - qələbə ovqatlı bugünkü söhbət zamanın dünənindən bac alır, axarını zamanın sabahlarına yönəldir. Sabahlar işğaldan azad edilmiş səngərsiz torpaqlardı. Əsgərlərin düşün-cələrində səngərsiz Vətən torpağı var, sərhəd bütövlüyünə, səngərsiz torpaqlara görə döyüş əzmi var, bir də qələbə ruhu var, Böyük Qələbənin son gülləsini atacaq əsgərin əlini sıxmaq istəyi var...

O düşüncələrdə həm də Cıdır düzünün çiçəklərinin ləçəyində dan yerinin şehi közərir, İsa bulağının pıçıltısı ağacların budaqlardan üzülən yarpaqlarının ninnisinə dönür...

Bu fikirlərim əsgərləri əməllibaşlı duyğulandırır.

Əsgər Kərəm Kazımov deyir ki, sizin dediklərinizi ictimaiyyətin fikri bilirik. Onu da bilirik ki, bizə bu səviyyədə güvənənlər hər birimizi əzizi hesab edir. Böyük Qələbə günü bütün əzizlərimizə "Salam, Qələbə!" nidasıyla gözaydınlığı verəcəyik...

Zəngilanlı olub Zəngilanı görməyən əsgər deyir ki, o sevinc bütün məmləkət boyunca yaşanılacaq. Qələbədən sonra Şüküratazda "Bayrağım - varlığım, bəxtiyarlığım!" nidasının nənnisi olacaq və o anları mən də ömrümə köçürəcəm.

Əsgər Musa Həmzəyev deyir ki, qazanacağız Böyük Qələbə zəngilanlıların Zəngilan həsrətini, şuşalıların Şuşa həsrətini, ağdamlıların Ağdam həsrətini,... bitirəcək...

Babası Birinci Qarabağ müharibəsində iştirak edən, atası müstəqil Azərbaycanın, özü bu günün əsgəri olan əsgər deyir ki, babam da, atam da döyüşlərdə iştirak etmək istəyəcək, ancaq buna ehtiyac olmayacaq. “Ali Baş Komandanın döyüş əmrini veteranların oğulları, nəvələri yerinə yetirəcəklər. Qalib əsgərlərin əlini onlar da sıxacaqlar”. Nə gözəl arzudu, nə duru niyyətdi!..

Zabit söhbətə qoşulan əsgərlərin də, digərlərinin də baxışlarını baxışında cəmləyir:

- Döyüş növbətçiliyini böyük məsuliyyətlə aparan əsgərlərimizin döyüş əzmini, qələbə ruhunu döyüş hazırlığı və döyüş hazırlığını tamamlayan mənəvi-psixoloji hazırlığı müəyyənləşdirir. Bu ruh Böyük Qələbənin ruhudu. Biz də Ali Baş Komandanın döyüş əmrinə hazırıq...

Zabitin fikirlərinin əsgərlərin döyüş əzmini, qələbə ruhunu kükrətdiyini duymaq çətin deyil. Kükrədir, çatılan qaşlar görürəm, düyünlənən yumruqlar görürəm. Qaşları çatılan, yumruğu düyünlənən əsgər "Qələbənin tarixini biz yazacağıq!" - deyir. Əsgərlər döyüş ovqatının içindən sıyrılıb döyüş üzünə çıxmaq niyyətlidi. Bu niyyət ümumən ordumuzun şəxsi heyətinin niyyətidi. Bu niyyət qələbə niyyətidi, Böyük Qələbənin niyyətidi. Azərbaycan əsgəri niyyəti gerçəkliyə çevirəcək. Biz də, əsgərlər də inanırıq ki, bu əmr müharibəni sonlandıracaq. Azərbaycan əsgərinin işğaldan azad edilən torpaqlarda döyüş bayraqları dalğalandıracağı günün ərəfəsindəyik. Yaxın vaxtlarda "Salam, Qələbə!" nidası açılan səhərimizin şükranlığı olacaq...

Əsgərlərə baxıram. Mənə elə gəlir ki, baxışlar "Qələbənin tarixini biz yazacağıq!" - deyir. Bu dönməz nida Arazın sularının sahilin sığalına dönən dalğalarının pıçıltısına qarışır...

***PS.** İki gün əvvəl yaşadığım duyğuların gerçəkliyini bu gün yaşayıram. İki gün əvvəl ürəyimdən keçənlərin gerçəkliyini yazmaq jurnalist taleyimin bəxşəri andıdır sanki...*

*"Qələbənin tarixini biz yazacağıq!" deyən əsgərlərimiz bu tarixin başlanğıcında ilkin qələbələr qazanıb. Dünən söhbətləşdiyim əsgərlər də onların sırasındadır. Böyük Qələbədən reportaj yazmağa niyyətliyəm...*

*Döyüşünüz müqəddəs döyüşdü, Azərbaycan əsgəri. İlkin qələbəniz mübarək!..*

**Rəşid HÜSEYNOV,
"Azərbaycan Ordusu"**




*Əhmədiyyə Cəbrayılov - 100*

# "Ordumuzun qələbələri xalqımızı sevindirəcək"

*Şəki şəhərində ezamiyyətdə olarkən tanınmış partizan Əhmədiyyə Cəbrayılovun oğlu, Xatirə muzeyinin yaradıcısı Cavanşir müəllimlə də görüşüb atası haqqında xatirələrini, maraqlı söhbətlərini qələmə aldıq.*

O, atası Cəbrayılov Əhmədiyyə Mikayıl oğlunun 1920-ci ilin 22 sentyabrında Şəki şəhər Oxud kəndində anadan olduğunu dedi: "Atamın gedib uzaq Fransa torpaqları uğrunda döyüşməyi, Fransa Müqavimət Hərəkatında iştirakı uzun bir yoldan keçir. O, orta məktəbi bitirəndən sonra Şəkidə texnikuma daxil olur. Quba-Xaçmaz rayonunda təsərrüfatların birinə aqronom təyin olunur. Bir gün eşidir ki, Ukraynada hərbi məktəbə elan var. Orada dərslər alman dilində keçirilir və məktəbdə o dövrün texnikaları, silahları öyrədilir. Atam Şəki hərbi komissarlığına gəlib, həmin məktəbə göndərilməsini xahiş edir. Beləliklə, onu həmin məktəbə göndərirlər. Həmişə ondan soruşanda ki, sən necə olub ki, alman dilini belə mükəmməl öyrənmisən? O da cavabında deyərdi ki, düşməni vurmaq, məhv etmək üçün onun dilini bilmək lazımdır. Ona görə də atam alman dilində təmiz danışırdı."

Əhmədiyyə Cəbrayılovun döyüş yolundan bəhs edən Cavanşir müəllim bildirdi ki, müharibə başlayanda o, Ukrayna cəbhəsində döyüşürdü. Bu döyüşlərdə iki dəfə yaralanır. "Atam baş leytenant rütbəsinə qədər yüksəlir. 1942-ci ildə təyyarə ilə kəşfiyyata gedirlər. Qayıdanda təyyarələri vurulur. Bu zaman paraşütlə düşür və o, əsir alınır. Atam da digər əsirlərlə birlikdə Daxau əsir düşərgəsinə aparılır. Əsirlikdə çox işgəncələrə məruz qalır. Fransa almanlara təslim olanda, bu ölkənin ən böyük şəhərlərindən biri olan Rodez şəhərində partizanlar dağıntılar törədir. Almanlar çoxlu sayda əsirləri Rodez şəhərindəki əsir düşərgəsinə göndərirlər. Orada olan əsirlər ağır işlərə, tikintilərə cəlb edilir. Göndərilən əsirlər arasında atam da olur. Burada atam çox ağır xəstələnir. Hospitalda xadimə işləyən madam Jannanın sayəsində atam əsirlikdən qaçır və partizanlara qoşulur. Xanım Janna partizanlara zəmanət verir ki, bu əsir, həqiqətən də, sovet kəşfiyyatçısıdır. Jannanın həyat yoldaşı türk əsilli olduğundan o, atamla asanlıqla danışa bilirdi."

Bəs necə oldu ki, Fransa kimi böyük bir ölkənin Milli Qəhrəmanı adı ona verildi? Sualımıza cavab olaraq Cavanşir müəllim dedi: "Atamın partizan dostları Şəkiyə gələndə söhbət edirdilər ki, onlar hərbçi olmayıblar, hər biri ayrı-ayrı ölkələrdən idilər. Dostlarından biri qeyd etdi ki, silahlardan istifadə edə bilmirdik. "Təyyarə təlimləri keçirdik, bacarmırdıq, o isə hər şeyi bacarırdı. Biz bilirdik ki, ruslar onu kəşfiyyatçı kimi hazırlayıb göndəriblər. Ona görə dəstədə hamı onunla maraqlanırdı. İstəyirdik ki, kəşfiyyata gedəndə Armed Mişellə gedək. Ona görə ki, o, əməliyyatın bütün yollarını çox gözəl bilirdi. Dəstədə bütün partizanlar bilirdi ki, kim Armed Mişellə getsə, sağ-salamat geri qayıdacaq. O şəhərdə də Armed Mişel, Xarqo adı ilə fəaliyyət göstərirdi. Bir gün dəmiryol xəttini partlatmaq üçün ikimiz birlikdə əməliyyata getdik. Mən almanların əsgər, o isə zabit formasını geyindi. Təbii ki, alman zabitinə məxsus sənədi də var idi. Almanlar həmin dəmiryol xəttini çox qoruyurdular. Armed alman əsgərlərinə yaxınlaşıb dedi ki, mən dəmiryolunu yoxlamağa gəlmişəm. Məni göstərib bildirdi ki, o da mənimlədi. Biz bilirdik ki, növbəti gələn qatar silah-sursat gətirəcək. O, zabit kimi guya xətləri yoxlayır, mənsə partladıcı qurğuları lazımi yerlərə yerləşdirirdim. Yerləşdirdikdən sonra çayı keçib ağaca çıxıb orada bir gün qaldıq və qatarın necə partladığının şahidi olduq. Haray-qışqırıqları eşitdik. Bu zaman almanlar hər tərəfi yoxlasalar da, bizi görə bilmədilər. Həmin ərazini bizdə olan xəritə ilə sağ-salamat tərk etdik. Bir gün də limanı partlatmalıydıq. Lakin oraya daxil olmaq qeyri-mümkün idi. Armed ştabın rəisinə dedi ki, ona üç gün vaxt versin. Alman zabit formasını geyinib motosikletə minib getdi. Üç gündən sonra gəldi. Deməli, o, şəhərin memarını tapıb, yeraltı tullantı sularının axdığı xətlərin istiqamətini öyrənmişdi. Bu çox təhlükəli əməliyyat idi. Altı nəfər idik. Üç nəfəri postlara təyin etdi və tapşırdı ki, bir-birinizə yaxın dayanmayın. Əgər bir yerdə dursanız, faşistlər duyuq düşəcəklər. Hər birimiz alman formasında idik. Tunelə düşdük. Özümüzlə götürdüyümüz ağacları yol boyu sancdıq ki, yolu itirməyək. Qayıdanda gördük ki, yoldaşlarımız yoxdur. Düşərgədə bizə dedilər ki, sizinlə gedən partizanlar bir yerə yığıldığına görə faşistlər şübhələnib, onları tutub dar ağacından asıblar. Çox kövrəldik. Tez bir zamanda Mişel əməliyyat quraraq asılan yoldaşlarımızı dar ağacından götürüb gətirmişdi. Biz onları dəfn etdik. O bizə çox köməklik edirdi. Onun hərbi təhsili var idi. Almanlardan qənimət kimi götürdüyümüz döyüş texnikasını, maşınları, silah-sursatı bizə öyrədirdi. Biz onu həmişə çox sevmişik." Bu söhbətləri atamın partizan dostu Rene Jambat edirdi. Atamın adını partizan dəstəsində dəyişib Armed Mişel adlandırırlar. Onlar Əhmədiyyə Cəbrayılov deyə bilmədikləri üçün bu adı ona verirlər. Atam Fransa torpaqlarının faşistlərdən təmizlənməsində saysız-hesabsız qəhrəmanlıq nümunələri göstərib. Onun haqqında məlumatı olan Fransa dövləti Əhmədiyyə Cəbrayılovu Milli Qəhrəman ordeninə layiq görürlər."

C.Cəbrayılov atasının müharibədən gələndən sonra da çox əziyyətlər çəkdiyini dedi: "Öz Vətənində də ona ağır işgəncələr verdilər, dırnaqlarını çıxartdılar. Bizə Vətən xaininin övladı kimi baxırdılar. Elə bir ciddi tapşırıq verilmişdi ki, kim o ailəyə salam versə, həbs olunacaq. Hər kəs, hətta doğmalarımız da ailəmizdən qaçırdılar. Dayılarımız, xalalarımız bizə salam vermirdilər. Atam dağlarda, meşələrdə yaşadı. Çətin günlər keçirdik. Hər gün gəlib evimizdə axtarış edirdilər. Fransada göstərdiyi qəhrəmanlığa görə ona təqdim olunan hədiyyələri axtarış zamanı apardılar. Anamla nənəm onun orden və medallarını, sənədlərini, şəkillərini qoyun dərisinə büküb, sellofona yerləşdirib torpağa basdırmışdılar. Bildiyiniz kimi, 1963-cü ildə atam sovet rəhbəri Xruşşovla görüşür. Fransa Müqavimət Hərəkatının rəhbəri Şarl de Qoll atamın yaşaması üçün yüz min dollar pul göndərir. Atam bu pulu götürmür və deyir ki, mən heç bir dövlətdən pul götürmürəm. Atam Fransadan göndərilən pulu Sülh fonduna keçirir. Atamın Xruşşovla görüşündən sonra ona bir daha təzyiqlər olmur. Kənddə inşaat briqadasının briqadiri işləməyə başlayır. O, Oxud kəndində ilk məktəb binasının tikilməsi təşəbbüsü ilə çıxış edir. Kəndimizdə iki mərtəbəli məktəb binasını tikib istifadəyə verirlər. Bu gün həmin məktəb Əhmədiyyə Cəbrayılovun adını daşıyır. Həmin məktəbin neçə-neçə alim, akademik, yazıçı, ictimai xadim, rəssam yetirməsi var. Sonra atamın sovet rəhbəri Brejnevlə, Moskvaya səfərə gələn Şarq de Qolla görüşü olur."





Cavanşir müəllim atasının onların təhsillərinə xüsusi önəm verdiyini vurğuladı. "Atam həmişə bizə hərbi xidmət keçməyin vacib olduğunu söyləyərdi. Böyük qardaşım Mikayıl həmişə deyərdi ki, mən də atam kimi qəhrəman olacam. Oldu da…"

Ailələrinin hər zaman dövlətin qayğısı ilə əhatə olunduğunu deyən Cavanşir müəllim Ümummilli Liderimizin iştirak etdiyi bir çox tədbirlərə atasının da dəvət edildiyini bildirdi. "Ulu Öndər atama təbrik məktubları, hədiyyələr göndərirdi. Atam Azərbaycan SSR Kommunist Partiyasının XXX qurultayının nümayəndəsi olub. O, 1994-cü ildə yol qəzasında faciəli surətdə həlak oldu."

Cavanşir müəllim atası ilə bağlı daima rəsmi dövlət tədbirlərinə dəvət aldığını dedi: "1995-ci il iyulun 14-də Fransanın ölkəmizdəki səfiri məni Bastiliya qalasının alınması münasibətilə keçirilən bayram tədbirinə dəvət etdi. Tədbirdə Ulu Öndərin alovlu çıxışı oldu. Sonra səfirdən soruşdu ki, deyəsən, qəhrəmanımızın oğlu da bu tədbirdə iştirak edir. Mən Ulu Öndərlə görüşmək üçün onun qarşısına keçdim. Hörmətli Prezidentimiz o zaman bizə atam haqqında çox gözəl sözlər dedi: "Əhmədiyyə Cəbrayılov qoçaq adam olub, əsl qəhrəmandır, onun xatirəsini mütləq yaşatmaq lazımdır. Sənə tapşırıram və əmr edirəm, onun xatirəsini yaşadarsan." Ümummilli Lider "Qəhrəmanın ailəsində hər hansı bir sıxıntı varmı?" - deyə soruşdu. Ailəmizdə heç bir sıxıntının olmadığını dedim. Amma Ulu Öndərə atama heykəl qoymaq arzumu çatdırdım. Səhərisi gün Ümummilli Liderimizin tapşırığına əsasən, heykəlin hazırlanması üçün 372 milyon pul ayrıldı. Üzərində atamın şəkli olan xalça və stolüstü heykəl də 70 illiyi münasibətilə Ulu Öndərin tapşırığı əsasında hazırlanmışdı. 1997-ci ilin 13-17 yanvarında Ümummilli Liderimizin Fransaya rəsmi dövlət səfərində mən də nümayəndə heyəti sırasında idim. Ən böyük arzuma çatmışdım. Atamın döyüşdüyü yerlərlə tanış oldum. Prezident sarayında qonaqlarla bərabər mən də iştirak etdim. Bütün bunlar Ulu Öndərin müharibə qəhrəmanına verdiyi dəyər idi. Atam dünyasını dəyişəndə ailəmizə başsağlığı teleqramı göndərmişdi. Onun həmişə bizim ailəyə, atama diqqət və qayğısı olub. Biz bunu heç zaman unutmarıq."

2016-cı ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə Fransanın Kann şəhərində və Parisdə Eyfel qülləsinin yerləşdiyi ərazidə təşkil olunan sərgiyə dəvət aldığını deyən Cavanşir müəllim qeyd etdi ki, Parisdə keçirilən sərgidə Fransanın Milli Qəhrəmanı olan atam Əhmədiyyə Cəbrayılovla da bağlı yer ayrılmışdı. "2019-cu il sentyabrın 25-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Fransanın Milli Qəhrəmanı Əhmədiyyə Cəbrayılovun xatirəsinə həsr olunmuş Ev muzeyini ziyarət etdi. Heydər Əliyev Fondunun dəstəyi ilə atamın anadan olmasının 100 illiyi ilə əlaqədar Moskvada, Bakıda bədii filmin çəkilişi olacağını bizə bildirdilər. Tanınmış rejissor Ramiz Fətəliyev də Əhmədiyyə Cəbrayılovun ömür yolu haqqında film hazırlayır. Vaxtilə Şəki Dram Teatrının rejissoru Hüseynağa Atakişiyev atam haqqında iki pərdəli pyes əsasında tamaşa hazırlamışdı. Avqustun 11-də Azərbaycan Prezidenti İlham Əliyevin Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyi ilə əlaqədar imzaladığı sərəncam hər birimizin sevincinə səbəb oldu. Atam haqqında imzaladığı sərəncamla əlaqədar olaraq Azərbaycan Prezidenti İlham Əliyevə ailəmiz adından minnətdarlığımı bildirirəm."

Yubiliyarın oğlu Xatirə muzeyinin qonaqları sırasında hər zaman hərbçilərin də olduğunu vurğuladı. "Biz Vətənimizi qoruyan əsgərlərimizlə qürur duyuruq. Bəli, Vətən torpağının hər qarışı doğmadır, əzizdir. Vətəni sevin, onun bütövlüyü naminə döyüşə hər an hazır olun. Atababalarımızın qəhrəmanlıq ənənələrini əməllərinizdə həmişə yaşadın. Atam yaşının ahıl vaxtı olmasına baxmayaraq Qarabağa can atırdı. Ayda üç dəfə Qarabağa gedər, döyüşən əsgərlərlə görüşər, onlara ruh yüksəkliyi aşılayardı. Cəbhəyə yardımlar apardı. Əsgər və zabitlərimizə Xarqo qorxmazlığı, qəhrəmanlığı arzulayıram. Ordumuzun qələbələri xalqımızı sevindirəcək."

**Söhbəti apardı:
Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

*Düşmən təxribatını dayandırmaq, qəsbkarların qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini qorumaq məqsədi ilə Azərbaycan Ordusunun ön xətdə yerləşən hissələri tərəfindən cavab tədbirləri görülüb. Görülən operativ tədbirlər nəticəsində düşmən hücumunun qarşısı alınıb. Ölkəsinin müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, işğalda olan torpaqlarımızı azad etmək üçün Azərbaycan Ordusunun hissələri əks-hücuma keçib.*

*Ovqat*

# Böyük Qələbənin başlanğıcı



Yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusunun zabit və əsgərləri qısa müddət ərzində ermənilərin müqavimətini qırıb, qəsbkarları geri oturdub. Azərbaycan əsgəri döyüşlərdə düşmənə sarsıdıcı zərbələr vurub.

Azərbaycan Ordusunun zabit və əsgərləri torpaqlarımızın bir qismini işğaldan azad ediblər. Füzuli və Cəbrayıl rayonları istiqamətində gedən döyüşlərdən aldığımız şad xəbərlər hamımızı ürəkdən sevindirdi. Bu rayonların səkkiz kəndi erməni qəsbkarlarından azad olunub. İllərdən bəri biz ordumuzdan zəfər və uğur dolu xəbərlər gözləyirdik. Şükürlər olsun ki, bu sevinc dolu xəbərləri eşitdik. Hələ neçə-neçə şad xəbərlər eşidəcəyik. Böyük Qələbənin xəbərini də. Aylardan, illərdən bəri gözlədiyimiz gün gəlib çatdı. Ordumuzun zabit və əsgərləri bu kəndlərin azadlığı uğrunda böyük cəsarət və hünərlə vuruşdular. Vətənpərvərlik hissləri yüksək olan hərbçilərimiz hünər və cəsarətləri ilə mənfur düşmənə bu payız günlərində məğlubiyyətin acısını dadızdırdılar. Rəşadət və igidlikləri ilə bütün dünyaya güclü və qüdrətli olduqlarını, düşməni məhv etməyin qadirliyini göstərdilər. Düşməni məhv edərək qalib çıxdılar.

Təkcə Füzuli, Cəbrayıl istiqamətlərindən deyil, başqa cəbhə bölgələrindən də Azərbaycan Ordusunun uğurlarını, zəfərlərini eşidirik. Ağdərə istiqamətində erməni qəsbkarlarının ön mövqeləri yerləyeksan edilib. Mülki əhalinin zərər çəkməməsi üçün komandanlıq ermənilərə silahı yerə qoyub təslim olmağı təklif edib. Çünki qəsbkarlar mülki əhalinin yaşadığı kənd və qəsəbələrdə mövqe tutublar.

Murovdağ istiqamətindən alınan xoş xəbərlər də ovqatımıza ovqat qatdı. Azərbaycan Ordusunun hissələri misilsiz hünər və rəşadət göstərərək böyük strateji əhəmiyyəti olan Murov zirvəzini erməni qəsbkarlarından azad ediblər. Düşmənin Ağdərə və Kəlbəcər istiqamətinə gedən yolu tam nəzarətə götürülüb. Azərbaycan Ordusu bütün cəbhə boyu sarsıdıcı zərbələr endirir. Bu zərbələr qələbələrin başlanğıcıdır.

Xeyli müddət idi ordumuzdan zəfər xəbəri, qələbə xəbəri gözləyirdik. Həmişə arzulayırdıq ki, getdikcə güclənən Azərbaycan Ordusu tariximizə bir-birindən şərəfli səhifələr yazaraq erməni qəsbkarlarını torpaqlarımızdan qovub çıxarsın. Doğma ocaqlarından didərgin düşmüş insanları ata-baba yurdlarına qaytarsın. Şərəf dolu həmin gün nəsib oldu. Azərbaycan Ordusundan, onun böyük uğurlar qazandığı döyüşlərdən bir payız günündə - 2020-ci il sentyabrın 27-də şad xəbərlər eşitdik. Eşitdiklərimizdən qəlbimiz vəcdə gəldi, ürəyimiz iftixarla doldu. Azərbaycan Ordusunun hissələri illərdən bəri Füzuli və Cəbrayıl rayonunun işğal altında olan səkkiz kəndini erməni qəsbkarlarından azad etdi. Azərbaycan əsgərinin addım səsləri, alqış sədaları işğaldan azad olunmuş torpaqlarımızda da eşidildi. Bu şad xəbərdən qəlbimiz cuşa gəldi, sevincdən gözlərimiz yaşardı, qürur hissləri keçirdik. Bu payız günlərində Azərbaycan Ordusunun gücünü, qüdrətini hamımız gördük.

Qazanılmış bu zəfərlər, bu uğurlar Böyük Qələbəyə gedən yolda ilk addımlardır. Bu addımlar, bu uğurlar getdikcə böyüyəcək, günlər keçdikcə daha da geniş əraziləri əhatə edəcək. İnanırıq ki, Əbdürrəhmanlıdan, Qərvənddən, Kənd Horadizdən və başqa kəndlərdən başlanan uğurlu döyüşlər Şuşada, Xankəndidə Böyük Qələbə ilə başa çatacaq. O gün mütləq gələcək, o gün mütləq tariximizə yazılacaq, o günün sevincini biz mütləq yaşayacağıq!

Uğurun mübarək, Azərbaycan Ordusu! Gözün aydın, Azərbaycan xalqı, böyük ümidlər bəslədiyin ordun yeni-yeni zəfərlər, yeni-yeni uğurlar qazanır! Zəfərlərin, uğurların davamlı olsun, Azərbaycan əsgəri! Xalqını yeni-yeni qələbələrinlə, zəfərlərinlə sevindir, Azərbaycan əsgəri!

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# MVT-2000 "Əl-Xalid" (VT-1A) tankı



Pakistanın əsas döyüş tankı Əl-Xalid NİT (Neavy İndustries Taxila) şirkəti ilə Çinin NORİNQO (North İndustries Corporation) şirkətinin sıx əməkdaşlığı nəticəsində hazırlanıb. Uzun sınaqlardan sonra bu döyüş maşını 2000-ci ildə Pakistan ordusunun tərkibinə daxil edilib. Tank müasir atəşi idarəetmə sisteminə malikdir və analoji olaraq Fransa istehsalı olan "Leklerk" tankına oxşardır. Pakistan ordusunun Əl-Xalid tankları "Thales" Fransa şirkətinin istehsal etdiyi teplovizorlarla təchiz edilib. Əl-Xalid tankının Tip 90-II prototipi (1991-ci il), Fransa istehsallı Unidiesel V mühərrikli Tip 90-IIA, Çin istehsallı mühərriki olan Tip 90-IIM (MVT-2000), MVT-2000-nin müasir modifikasiyası olan VT-1A kimi variantları da mövcuddur. Bu tankın çəkisi 49 tona qədər artırılıb və TİUS (idarəetmə-informasiya sistemi) və 1300 at gücündə Çin istehsalı olan mühərriklə də təchiz edilib.



MVT-2000 "Əl-Xalid" (VT-1A) tankının şose yolda sürəti saatda 70 kilometr, şose yolda ehtiyat hərəkəti 400 kilometrdir (daxili çənlərlə birlikdə isə 500). Asılqanı fərdi, torsiondur. Döyüş maşını 0,85 metrlik divar maneəsini dəf etməyə, 2,7 metrlik xəndək, 1,4 metrlik dayaz yerlərdən keçməyə də qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş Ağdərə yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində oğurluq edən iki hərbi qulluqçu həbs edilib.

İşğalçı ordunun hərbçiləri Artur Apoyan və T.Ayvazyan hərbi əmlakı oğurlayaq kriminal dəstənin üzvlərinə satdığına görə həbs olunublar.

Fakt ictimaiyyətdən gizlədilsə də, hərbi qulluqçular A.Apoyan və T.Ayvazyan barəsində prokurorluq tərəfindən başlanan cinayət işi üzrə istintaq davam edir.

* * *

İşğal edilmiş Madagiz yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən daha bir hərbi qulluqçu təcili olaraq hospitala yerləşdirilib.

Hərbi hissənin zabiti Datinyanın məruzəsinə əsasən əsgər Kamo Koncoryan zəhərli ilan sancdığına görə təcili olaraq hərbi hospitala təxliyə olunub. Həkimlər müdaxilə etsələr də, hələ də hərbi qulluqçu K.Koncoryanın vəziyyəti ağır olaraq qalır.

Faktla bağlı heç bir rəsmi açıqlama verilməyib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdən birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin 33651 saylı hərbi hissəsinin əsgəri oğurluq etdiyinə görə həbs edilib.

Bildirilir ki, Yerevanın Kentron hərbi komissarlığından xidmətə çağırılan 2001-ci il avqustun 7-də anadan olmuş Georgi Dəlləkyanın tanklardan yanacaq-sürtgü materiallarını oğurlayaraq satdığı məlum olub.

Fakt ictimaiyyətdən gizlədilsə də, hərbi qulluqçu G.Dəlləkyan saxlanılıb və onun barəsində hərbi prokurorluq tərəfindən başlanan cinayət işi üzrə istintaq davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdən birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən daha bir hərbi qulluqçunun fərarilik etdiyi məlum olub .

Hərbi hissənin 1-ci taborunun hərbçisi Davit Babayan ona qarşı edilən təzyiq və təhqirlərə dözməyərək xidmət yerindən qaçıb.

Faktla bağlı heç bir rəsmi açıqlama verilməsə də, hərbi polis tərəfindən hərbi qulluqçu D.Babayanın tapılması və geri qaytarılması ilə bağlı tədbirlər görülür.

* * *

İşğal edilmiş Ağdərə yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrindən birinin əsgəri vəziyyəti pisləşdiyindən təcili yardım maşını ilə hərbi hospitala çatdırılıb.

Hərbi hospitalın işçisi Marine Hemaherunun bildirdiyinə görə yüksək hərarət səbəbindən hərbi qulluqçu Sergey Hambarçumyanın halı pisləşib. Hərbi tibb maşını olmadığından məcbur qalıb mülki təcili tibbi yardım maşını çağıraraq əsgəri hospitala çatdırıblar. Müayinə zamanı hospitalın həkimlərinin qənaətinə görə komandanlığın səhlənkarlığı üzündən əsgər S.Hambarçumyan vaxtında tibb məntəqəsinə göndərilməyib. İkitərəfli pnevmoniya diaqnozu ilə hospitalın reanimasiya bölməsinə yerləşdirilən hərbi qulluqçunun vəziyyəti ağır olaraq qiymətləndirilir.

Erməni hərbçisi S.Hambarçumyanın COVID-19 testi də müsbət çıxıb. Hələlik, əsgərin ailəsinə xəbər verilməyib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Əhmədli Fərid Həmid oğluna 2012-ci ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 547
Nüsxə 4000